## 863 M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasının işçilərinin əməkhaqlarına əlavələr müəyyən edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN
QƏRARI

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. M. F. Axundov adına Azərbaycan Respublikası Milli Kitabxanasının işçilərinə hər ay onların aylıq vəzifə maaşlarının 1 misli məbləğində əlavə ödənilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Mədəniyyət Nazirliyi ilə birlikdə bu qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 17 sentyabr 2005-ci il
№ 172